**UOT 327; 323**

# İRAN İSLAM İNQİLABI ƏRƏFƏSİNDƏ İRANDA, O CÜMLƏDƏN CƏNUBİ AZƏRBAYCANDA İNQİLABİ ŞƏRAİTİN YETİŞMƏSİ

**Yeganə HACIYEVA***

***Açar sözlər:*** *inqilab, İran, cənubi azərbaycanlılar, milli məsələ, mübarizə*

**Giriş**

Cənubi Azərbaycan türkləri IX əsrdən başlayaraq müəyyən fasilələrlə 1924-cü ilədək indiki İran ərazisində siyasi hakimiyyətə malik olmuş, ölkənin siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mütərəqqi ideyaların yayılmasında aparıcı rol oynamışlar. Lakin yeni tarixi dövrə keçid mərhələsində azərbaycanlılar milli həyatın etnik komponentlərinin hərtərəfli inkişafı üçün lazımi siyasi və mədəni mühitin yaradılmasına nail ola bilməmişlər. 1925-ci ildə Rza xan Pəhləvi hakimiyyətə gəldikdən sonra İranda geniş miqyasda həyata keçirilən mərkəzləşdirmə siyasəti milli münasibətlərə ciddi təsir göstərərək İranda yaşayan əksər xalqların, o cümlədən, Azərbaycan türklərinin milli hüquqlardan məhrum edilməsi ilə nəticələnmişdi. Həmçinin həmin vaxtdan etibarən Cənubi Azərbaycan bölgələri sosial-iqtisadi cəhətdən getdikcə geriləyən əyalətlərə çevrilmişdi. İran İslam inqilabının baş verməsi də ötən əsrin 60-70-ci illərində İranın, o cümlədən Cənubi Azərbaycanın sosial – iqtisadi və siyasi həyatında baş verən proseslərin nəticəsi idi.

1960-1970-ci illərdə İran cəmiyyətini xarakterizə edən əsas əlamət ictimai həyatın bütün sahələrində dövlətin rolunun kəskin surətdə artması idi. Bu dövrdə parlamentdə qüvvələrin təmsil olunma balansı tamamilə pozulmuşdu. İran Məclisində (1971) 268 yerdən 229-na sahib olan Yeni İran (İran-e No) partiyasını 1975-ci ildə Məhəmməd Rza Pəhləvi tərəfindən yaradılan vahid bir partiya – “İran Millətinin Dirçəlişi Partiyası” (“Rəstaxiz”) əvəz etdi (7, s.33-36). Yeni partiyanın baş katibi baş nazir A.Hoveida bütün siyasi partiyaları Şahın elan etdiyi yeni bir siyasi sistemə qoşulmaq üçün bağlanmağa çağırdı(7, s.38). Şah “ağ inqilab”ın İran cəmiyyətinin mənəvi və siyasi birliyini yaradacağına və bu birliyin təkpartiyalı sistemə keçid üçün əsas ola biləcəyinə inanırdı. Məhəmməd Rza Şah “Figaro” qəzetinin müxbiri Grussara verdiyi müsahibədə deyirdi: “Düşünməyin ki, mən mütləqiyyət tərəfdarıyam. Lakin... indi ölkənin mənim gücümə ehtiyacı var” (7, s.27). Təbii ki, yaranacaq birliyin ideoloji rəqibləri ilə mübarizə aparmaq üçün praktik olaraq hər şeyə qadir olan, mükəmməl şəkildə təşkil edilmiş bir şiddət aparatına ehtiyacın olduğunu düşünürdü. İran cəmiyyətinin siyasi mühitini müəyyənləşdirən bu proses 1978-1979-cu illərdə inqilabi şəraitin yetişməsi prosesində ilkin ictimai-siyasi şərtlərdən birinin meydana gəlməsinə səbəb oldu.

Məhəmməd Rza Pəhləvi bütün cəmiyyəti kökündən dəyişmək, yenidən qurmaq gücünə sahib olduğunu iddia edirdi. Ölkəni qüdrətli orduya malik bir dövlətə çevirmək istəyən şah 1975-ci ildə təkcə silah alınması üçün ABŞ-a 6 milyard dollarlıq sifariş vermişdi (2, s.76). Neft sənayesindən əldə edilən böyük gəlir eyni zamanda potensial müxalifəti özünə çəkmək və sosial nəzarət alətlərini daha da genişləndirmək üçün vasitə hesab olunurdu.

1960-cı illərin ikinci yarısında İran iqtisadi həyatında demək olar ki, nəzərə çarpmayan inflyasiya, 1970-ci illərin əvvəllərində yenidən meydana çıxdı. Məsələn, 1976-cı ildə “London Economist”də dərc olunan hesabatda Tehranda kirayə qiymətlərinin beş ildə 300 faiz artdığı qeyd edilirdi (8, s.497). İnflyasiyanın kompleks səbəbləri sırasına mənzil çatışmazlığı, ölkəyə 60 mindən çox yüksək əmək haqqı alan xarici mütəxəssislərin axını, kənd təsərrüfatı istehsalının artan əhalinin tələbatı ilə uzlaşmaması, dünya bazarlarında qida məhsullarının qiymətinin qəfil artması və digər məsələlər aid idi. 1974-1975-ci illərdə hökumət inkişaf investisiyalarını üç dəfə və pul təklifini 60 faizdən çox artırdı (8, s.497). Şah 6 avqust 1975-ci ildə “ağ inqilab”ın islahatlar sənədinə 14-cü bəndi

* *Tarix üzrə fəlsəfə doktoru,dosent*
*Email: yeganehaji@gmail.com*

daxil etdi ki, bu bənddə sabit qiymətlərin tətbiqi, spekulyasiyalarla mübarizə və s. məsələlər nəzərdə tutulurdu (7, s.69). İnflyasiyanın səbəbləri nə qədər mürəkkəb olsa da, rejim sadə bir həll yolu tapdı: günahı birbaşa iş dünyasının çiyinlərinə qoydu. "Ekonomist" qəzetinin (London) təbirincə desək, "1973-cü ildə inflyasiya sürətlənməyə başladı və 1976-cı ilin yayında narahatedici səviyyəyə çatdığından problemlərə hərbi baxımdan baxmağa meyilli olan Şah möhtəkirlərə qarşı müharibə elan etdi" (8, s.497). Rejim əvvəlcə, böyük iş adamlarını hədəfə aldı. Zəngin sahibkarlar sosial-iqtisadi sistemdən, xüsusilə inkişaf planlarından faydalansalar da siyasi sistemdən əziyyət çəkməyə başladılar.

Zəngin sahibkarlara qarşı müharibənin inflyasiyaya son qoymadığını görən rejim ticarətçiləri və kiçik sahibkarları hədəfə aldı. Dirçəliş partiyası "müfəttişlik qrupları" adlanan dəstələr təşkil etdi və "möhtəkirlərə, fırıldaqçılara, pul yığanlara və vicdansız kapitalistlərə qarşı amansız səlib yürüşü" aparmaq üçün onları bazarlara göndərdi. SAVAK tərəfindən tələsik qurulan məhkəmələr təxminən 8.000 dükan sahibinə iki aydan üç ilə qədər həbs cəzası verdi və 180.000 kiçik sahibkara qarşı ittiham irəli sürdü (8, s.498). 1976-cı ilin əvvəllərində hər ticarətçi ailəsində "anti-möhtəkir kampaniyası"ndan əziyyət çəkən ən azı bir üzv var idi. Bir sözlə, "Ağ İnqilab" "Qırmızı İnqilab"a bənzəməyə başladı. "Donya" jurnalı, kampaniyanın başlamasından üç ay sonra 50 mindən çox sənətkarın və xırda tacirin cəzalandırıldığını, 160 milyon tüməndən çox cərimələr ödənildiyini yazırdı. Sənətkarlara qarşı Tehrandan başlayan hücum qısa müddətdə bütün ölkəyə yayıldı. "Ettelaat" qəzetində "Əlvida, kiçik dükanlar" başlığı ilə yazılar dərc olundu (7, s.70).

Bu təzyiqlər narazı və həssas kütləlari islamın bərabərlik şüarlarına doğru yönəltdi. Şah əleyhinə koalisiyada ən güclü mövqeləri ənənəvi xırda burjuaziya və ruhanilər tuturdu. İri burjuaziya milli demokratik inqilab həyata keçirməyə deyil, yalnız monarxiyanın konstitusiya azadlıqlarına riayət etməsinə nail olmağa çalışırdı. Ruhanilərin bir qrup mülayim hissəsi iri burjuaziyanı dəstəkləyir, radikal (qatı) qanadı isə ənənəvi xırda burjuaziyanın dəstəklədiyi teokratik diktatura qurmağa çalışırdı.

1960-1970-ci illərdə İranda monarx diktaturasının güclənməsi prosesində açıq siyasi fəaliyyət ehtimalı tədricən aşağı düşürdü. Monarxiya ideoloji dayaq kimi "etibarlı" paradiqmalar axtarışında ikən, bu axtarışlar həm marksist, həm də burjua düşüncəsi, həm dini, həm dünyəvi, həm də sosial və tarixi baxış bucağına sahib olan fikirlərin toqquşmasına səbəb oldu. Bu dövrdə monarxiyaya qarşı çıxan burjua sosial düşüncəsinin islama bağlı olduğu ortaya çıxdı. Ölkənin gələcəyini islamla əlaqələndirən və taleyini islam mövqelərindən düşünən Ale Əhməd, Mehdi Bazargan və Əli Şəriəti 1970-ci illərin ortalarında orta təbəqə, kiçik burjuaziya arasında xüsusi populyarlıq qazanmışdılar. Monarxiya üçün qəbuledilməz fikirlərin müəllifləri və daşıyıcıları təqib və repressiyaların qurbanı olmuşdular. Ruhullah Xomeyninin 1960-cı illərdə sürgün olunması ilə bağlı A.Doroşenko yazırdı: "Şahın Xomeynini İrandan qovması onu inanclı iranlıların gözündə" qəhrəman etdi (6, s.117). Bu isə ictimai mühiti elektrikləşdirdi və gələcək inqilabın ilkin şərtlərinin yaradılmasında mühüm amillərdən biri oldu. 1920-ci illərin sonunda məhkəmə hakimiyyətindən məhrum olan, "Ağ inqilab"la iqtisadi əsasları sarsıdılan bu ruhanilərin artan narazılıqlarının səbəbləri sırasına qadınlara səsvermə hüququnun verilməsi və sosial sahələrdə fəaliyyətləri oldu (9, s.472). Maraqlıdır ki, "mütərəqqi ziyalılar və tələbələr, xüsusən də Qərbdə yaşayanlar və ya oxuyanlar da özlərini bu ruhanilərə bağlı hesab edirdilər" (6, s.117). Qərbin yad bir dünya kimi mənfi təfsiri əvvəllər islamçılar tərəfindən (Ale Əhməd, Mehdi Bazargan, Ali Şariati və d.) səslənirdisə, 1970-ci illərdə oxşar tənqidlər rasional düşüncəli jurnalistlərin, alimlərin, yazıçıların və mədəniyyət xadimlərinin çıxışlarında əks olundu. Sonrakı hadisələrdən də göründüyü kimi, bu, İran cəmiyyətinin mütərəqqi qüvvələrinin din xadimlərinin qarşısında "diz çökmələrini" təmin edən faciəvi zəifliyini əks etdirdi.

İranın ictimai həyatının bütün istiqamətlərinə təsir edən "Ağ inqilab" proqramında milli və etnik azlıqlar haqqında (1906-cı ildə qəbul edilmiş konstitusiya kimi) heç bəhs edilmirdi. Ancaq proqramın bütün məqamları milli bölgələrdə iqtisadi fəaliyyətə və sosial münasibətlərin mövcud şərtlərinə yeni xüsusiyyətlər gətirmişdi. Mərkəzi hökumətin milli siyasətdən irəli gələn, bir sıra üstünlükləri təmin edən inzibati və siyasi rolunun güclənməsi, habelə, sənaye və sosial infrastrukturun nisbi inkişafı sayəsində Mərkəzi Bölgə İranın sənaye və ticarət fəaliyyətinin çox hissəsini tədricən sərhədləri daxilində cəmləşdirdi. Nəticədə, Mərkəzi Bölgə ilə ölkənin qalan hissəsi arasında qeyri-mü-

tənasiblik artdı. 1960-1970-ci illərdə İran cəmiyyətindəki sosial-iqtisadi proseslər və ziddiyyətli tendensiyalar ölkənin ən böyük milli bölgəsi olan Güney Azərbaycanın da sosial-iqtisadi və siyasi həyatına xas idi. Aparılan dəyişikliklər çox vaxt 60-70-ci illərdə milli ziddiyyətlərin vacib mənbələrindən biri olan mərkəzin və ətrafların sosial-iqtisadi inkişaf səviyyələrindəki fərqi azaltmadı, əksinə, artırdı.

Şah rejimi kənddəki sosial-iqtisadi ziddiyyətlərin kəskinləşməsi ilə əlaqədar olaraq milli azlıqları "sakitləşdirmək" üçün "Ağ inqilab"ın islahatlarından istifadə etdi.Buna görə də aqrar islahatlara milli qiyamların səbəbi olduğu, aqrar ziddiyyətlərin daha çox göründüyü milli ucqarlardan başlanılması heç də təsadüfi deyildi. Həmin islahatların tətbiqi əsasən azərbaycanlılar və kürdlərin yaşadığı Marağa (Şərqi Azərbaycan) (1962-ci ildə Marağa şəhristanında) bölgəsində başlandı. Üç mərhələdə aparılan aqrar islahat bütövlükdə yarıfeodal torpaq idarəçiliyi sisteminin əsaslarını sarsıtsa da kənd əhalisinin əhəmiyyətli bir hissəsinin iqtisadi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarmadı. Çünki dövlət fermer təsərrüfatlarının əksəriyyətini təşkil edən kiçik fermer təsərrüfatlarına kifayət qədər kömək göstərmədi. Torpaqların keçmiş icarədarlara satılmasına üstünlük verilməsi səbəbindən torpaq islahatı torpaqsız kəndlilərə, mövsümi işçilərə və ümumiyyətlə, yoxsul kəndlilərə müsbət təsir etmədi.Eyni zamanda, əsasən dövlət sahibkarlığı çərçivəsində həyata keçirilən geniş sənayeləşmə prosesi yerli özəl kapitalın və bu prosesə uyğun burjua sinfinin formalaşması üçün əlverişli şərait yaratmadı. Rəsmi məlumata görə, 1972-73-cü illərdə Şərqi və Qərbi Azərbaycan ostanlarının İran sənayesinin (neft istisna olmaqla) əsas sahələrinin məhsul istehsalındakı payı cəmi 1,02 faizə bərabər idi (3, s.87). Beləliklə, kapitalist istehsal üsulunun inkişafı İranda dərin ziddiyyətli, böhranlı xarakter daşıyırdı. Bunun da əsasını müasir və ənənəvi quruluşların dezinteqrasiyası təşkil edirdi. Azərbaycanda həmin vəziyyətdə bu ziddiyyətlər yeni (dövlət-kapitalist və böyük kapitalist) ilə köhnə quruluşlar arasında, xüsusən də kiçik miqyaslı əmtəə ukladı ilə və əlbəttə ki, bir tərəfdən maliyyə və sənaye burjuaziyası ilə iri torpaq sahibləri və digər tərəfdən kiçik emalatxana sahibləri, sənətkarlıq müəssisələri və kiçik fermerlər arasında kəskin hiss olunurdu. Bu cür sosial ziddiyyətlər öz orbitinə çoxlu sayda sosial qrupları – fəhlələri, şəhər lümpenlərini, yoxsulları, tələbələri, ziyalıları, orta şəhərli təbəqəsini cəlb edirdi. Azərbaycanda baş verən demoqrafik proseslərə diqqət yetirdikdə görürük ki, bu bölgələrdə əhalinin təbii artım tempi İranın mərkəzi əyalətləri ilə nisbətdə yüksək idi, hətta müəyyən dərəcədə bir sıra amillərin yaratdığı demoqrafik partlayış səviyyəsinə gəlib çıxmışdı. Eyni zamanda əhali sıxlığının başqa bölgələrə nisbətən yüksək olması və aqrar məskunlaşmanın ifrat səviyyəsi, Azərbaycanda kənd əhalisinin faiz nisbəti ümumi İran səviyyəsindən yüksək idi. Kənd əhalisinin çoxluq təşkil etdiyi ölkədə aparılan aqrar islahatlar yoxsul qrupların "partlama təhlükəsi" olan təbəqələrini yaratdı. Bunlarla yanaşı, milli bölgələrə, xüsusən də Azərbaycana münasibətdə yürüdülən milli təqib siyasəti Azərbaycanda ölkənin başqa rayonları ilə müqayisədə daha çox müxalif əhval-ruhiyyə yaratdı. Burada islahatların aparılması xüsusən, 1945-1946-cı illərdə Azərbaycan və Kürdüstanda müstəqil respublikaların mövcudluğu dövründə azərbaycanlılar və kürdlər arasında dərin anti-feodal və şah əleyhinə fikirlər yayan, onların milli şüurunun inkişafına kömək edən demokratik dəyişiklikləri xalqın yaddaşından silmək məqsədi daşıyırdı. İqtisadi baxımdan perspektivli milli bölgələrin sosial-iqtisadi vəziyyətinin köklü şəkildə yenidən qurulmasına yönəlmiş dövlət tədbirləri əksəriyyəti əhalisi fars olmayan əyalətlərdə hökumətin nəzarətinin gücləndirilməsinə kömək etdi və həmin dəyişikliklər xalqları hökumət əleyhinə nümayişlərdə iştirakdan yayındırmaq məqsədi daşıyırdı.

1960-1970-ci illərdə həyata keçirilən islahatlar ictimai-siyasi və iqtisadi həyatın inkişafını şərtləndirməklə yanaşı, eyni zamanda qeyri-farsları farslaşdırmaq məqsədi güdürdü. Bu siyasət kənd təsərrüfatı və sənayenin yeni sahələrinin yaradılması, müvafiq olaraq onların mexanikləşdirilməsi və avtomatlaşdırılması, həmin sahələrin nəzərdə tutulan kadrlara olan ehtiyaclarının təmin edilməsi ilə əlaqədar inkişaf etdirilməli olan maarif və mədəniyyət sahəsindəki tədbirlərdə özünü daha kəskin şəkildə büruzə verdi (1, s.46).

"Ağ inqilab" çərçivəsində sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi əsasən, ən böyük milli və etnik qrupların, ilk növbədə azərbaycanlıların, qismən də kürdlərin milli konsolidasiya prosesinin güclənməsinə kömək etdi. Bundan əlavə, dəyişikliklər zamanı inqilabdan sonrakı dövrdə

azərbaycanlıların milli məsələdəki mövqeyinin xüsusiyyətlərini müəyyənləşdirən ayrı-ayrı milli bölgələrin mərkəzi ilə yüksək səviyyədə inteqrasiyası əldə edildi (7, s.61). Azərbaycan türklərinin İslam İnqilabını geniş şəkildə dəstəkləməsinin səbəblərindən biri də onların 1960-1970-ci illərdə Azərbaycanın kənd və qəsəbələrindən Tehrana kütləvi miqrasiya etmələri idi. Pəhləvi rejimi dövründə mərkəzi şəhərlərə və Tehrana köçün ən yüksək faizi Azərbaycan vilayətlərindən idi (10, s.103).

İnqilabdan əvvəlki illərdə milli və etnik ucqar bölgələrdə hökumətin sərt nəzarəti qeyri-fars xalqların sosial etirazının artmasına mane oldu. İnqilab başladıqda, həmin əyalətlərdə ilk növbədə şəhər sakinləri İran xalqının Şah və anti-imperialist mübarizəsində öz xüsusi tələblərini irəli sürmədən iştirak etdilər. İranda milli hərəkatların inqilab dövründə deyil, inqilabdan sonra inkişaf etməsinin səbəbi milli azlıqların monarxiya devrildikdən sonra milli muxtariyyət əldə edəcəklərinə inanmaları ilə bağlı idi.

Beləliklə, 1960-1970-ci illərdə İranın sosial-iqtisadi və siyasi inkişafı ziddiyyətli xarakter daşıyırdı. Bir tərəfdən şah sarayının həyata keçirdiyi sosial-iqtisadi dəyişikliklər, habelə, dövlətin neft gəlirlərinin daha da artması üçün maliyyə-iqtisadi əsas olan sənaye quruculuğu feodal qalıqlarının aradan qaldırılması və kapitalist münasibətlərin daha da inkişafı üçün şərait yaradılmasında böyük rol oynadı. Digər tərəfdən ölkə iqtisadiyyatının Qərb transmilli korporasiyalardan asılılığının güclənməsi, şah ailəsi də daxil olmaqla, bütün İran elitasını və ordunun yüksək rütbəli zabitlərini bürüyən hərbiləşmə, israfçılıq, korrupsiya, xəzinə oğurluğu, tayfabazlıq və qohumbazlıq iri burjuaziyanın və yuxarı məmur təbəqəsinin daha da varlanmasını şərtləndirdi, sosial bərabərsizliyi artırdı. Kütləvi işsizlik, yoxsulluq və mənzil çatışmazlığı, həmçinin inflyasiyanın artması və miqrasiya prosesinin nəticələri kimi sosial problemlərin kəskinləşməsi sosial gərginliyi son həddə çatdırdı. Bu iqtisadi böhran polis nəzarətini zəiflətmək üçün şaha qarşı xarici təzyiqlərlə üst-üstə düşdü. Londonda yerləşən Amnesty International, Cenevrədəki Beynəlxalq Hüquqşünaslar Komissiyası, BMT-yə üzv olmayan Beynəlxalq İnsan Hüquqları Liqası İranın dünyanın "insan haqlarını ən pis pozan" ölkələrdən biri olduğunu elan etməklə, onu insan haqları ilə bağlı acınacaqlı vəziyyəti düzəltməyə çağırdı (8, s.499). Eyni zamanda iranlı mühacirlər də SAVAK vəhşiliklərini tanıtmaq üçün öz insan haqları komitələrini qurmuşdular. Qərbi Avropa və Şimali Amerika daxilində İran Tələbə Konfederasiyası və İslam Tələbə Cəmiyyəti Şah rejimini ifşa etmək üçün davamlı olaraq küçə nümayişləri təşkil edirdilər (9, s.469). 1977-ci ilin noyabrında şah Cimmi Karterlə görüşmək üçün ABŞ-a səfər edərkən iranlı tələbələrin konfederasiyası Ağ evin qarşısında çox böyük bir izdiham təşkil etdilər (9, s.470). Həmin illərdə Şah dəfələrlə nəinki SSRİ-ni və Çini, həm də ABŞ və Qərbi Avropanı anti-İran təşkilatların fəaliyyətinə icazə verdiyi üçün tənqid edir, hətta onları sözügedən qurumlara gizli dəstək verməkdə günahlandırırdı.

1979-cu il İran inqilabından əvvəl xaricdə təhsil alan tələbələrin sayı da artmışdı. Xaricdə təhsil alan tələbələrin sayı 1963-cü ildə 16 min nəfər idisə, 1975/76-cı tədris ilində artıq 38 min iranlı 73 xarici universitetdə (ölkədəki bütün tələbələrin 22%-i) təhsil alırdı (7, s.48). Bu artım özünü milli burjuaziya nümayəndələrinin, şəhərin və kəndin ənənəvi orta təbəqələrinin və qismən fəhlələrin ali təhsilə daha geniş çıxış əldə etməsində göstərdi. Buna 1974-cü ildə ali təhsil müəssisələrində təhsil almaq üçün yeni qaydaların tətbiq olunması kömək etdi. Sonrakı illərdə bu qaydalar bir sıra yeni müddəalarla tamamlandı və nəticədə hər təhsil ili üçün bir il müddətinə İranın dövlət və ya özəl müəssisələrində işləmək öhdəliyi götürən tələbələrə pulsuz təhsil hüququ verildi. Artıq 1976-cı ildə tələbələrin 93%-i güzəştli şərtlərlə təhsil alırdı (7, s.48). 1978-ci ildə 100000 universitet tələbəsinin 60 faizi savadsız ailələrin övladları idi (7, s.48). Varlı ailələrdən olan insanlar xaricdə ali təhsil almağı üstün tuturdular. Tələbə sayının 1974-cü ildən sonra, ilk növbədə, şəhərin və kəndin orta və xırda burjua təbəqələrinin nümayəndələrinin universitetlərə axını sayəsində nəzərə çarpacaq dərəcədə artması kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişməsinə keçməsi ilə nəticələndi ki, bu da onların ictimai-siyasi fəaliyyətində əks olundu. İranlı tələbə cəmiyyətlərində müxtəlif ideologiya daşıyıcıları – şovinist-millətçi, burjua-liberal, solçu radikal və sosialist gənclər toplanırdı. Nəticədə, 1970-ci illərin ikinci yarısında İran tələbələrinin əsas xüsusiyyətləri nəzərəçarpacaq dərəcədə dəyişdi ki, bu

da siyasi fəaliyyətin intensivləşməsində və tələbə çıxışlarının radikallaşmasında özünü göstərdi. 1977-ci ilin sonunda demokratik və anti-imperialist şüarlar altında Şah əleyhinə açıq bir mübarizə gedirdi. Qərbi Avropa, ABŞ və Kanadada iranlı tələbə təşkilatlarının siyasiləşməsi İrandakı tələbə hərəkatının Şah əleyhinə, anti-imperialist yönümünün güclənməsinə kömək etdi.

Xaricdəki mühacirlərin geniş fəaliyyətinin nəticəsi idi ki, tanınmış "Sunday Times of London" SAVAK-ı ifşa etdi və onun yalnız siyasi müxaliflərə qarşı deyil, rejimlə bağlı tənqid söyləməyə cəsarət edən ziyalılara qarşı da istifadə olunan "işgəncə nümunəsi" olduğu qənaəti formalaşdırdı (8, s.499). Hətta Şah üçün əhəmiyyətli olan ABŞ konqresmenləri arasında belə, bu qədər müasir Amerika silahının hüdudsuz səlahiyyətlərə malik hakimdən asılı olan bir rejimə satmağın nəticələri ilə bağlı müzakirələr başlandı; rəsmi Vaşinqtonun nümayəndələri İran rejimini "tək güllələi dövlət" adlandırmağa başladılar. Beynəlxalq təşkilatlar müstəqil parlament strukturları yaradılana və mətbuat, fikir və toplaşmaq azadlığı verilənə qədər İranın sabit ölkə hesab edilə bilməyəcəyini bildirdilər. ABŞ Dövlət Departamenti, Mərkəzi Kəşfiyyat İdarəsi (CIA) və Müdafiə Nazirliyi repressiv rejimə bu qədər silah satmağın potensial təhlükəli olduğu qənaətinə gəldi. Nəhayət, ABŞ prezidenti Cimmi Karter 1976-cı ildə İranı mülki və siyasi azadlıqların qorunması üçün daha çox çalışmalı olduğu ölkələrdən biri kimi qeyd etdi (8, s.500). Qərb sivilizasiyasının üstünlüklərini İrana gətirmək istəyən uzaqgörən bir modernizator imicini itirmək, Vaşinqtonla "xüsusi münasibətlərini" və Amerika silahlarına çıxışını təhlükəyə atmaq istəməyən Şah xarici təzyiqlərə müsbət cavab vermək məcburiyyətində idi. Üstəlik, islahatlarının populyar olduğuna özünü o qədər inandırmışdı ki, bütün rejimi təhlükə altına qoymadan nəzarəti zəiflədə biləcəyini düşünürdü; on illər davam edən təbliğat hökmranlığı olmasa da hökmdarı aldatmağı bacarmışdı (8, s.500).

Sosial gərginliyin dərinləşməsi, yuxarıda qeyd edilən beynəlxalq insan hüquqları təşkilatlarının, ABŞ-ın təzyiqlərinin nəticəsində Şah rejimi insan hüquqları sahəsində vəziyyəti nisbətən yumşaltmağa, polis nəzarətini zəiflətməyə qərar verdi. 1977-ci ildə 357 siyasi məhbusa amnistiya, Beynəlxalq Qırmızı Xaç Komissiyasına iyirmi həbsxananı ziyarət etməyə və təxminən 3000 həbsxana məhbusunu görməyə icazə verdi. Xarici vəkillərin terrorizmdə ittiham olunan on bir müxalif nümayəndənin məhkəməsini izləməsinə icazə verildi; 1960-cı illərin əvvəllərindən bəri ilk dəfə kənar vəkillər hərbi məhkəməyə buraxıldı. Mayın əvvəlində Şah "Amnesty International", Beynəlxalq Hüquqşünaslar Komissiyasına siyasi məhbusların hüquqlarını daha yaxşı qorumaq üçün məhkəmə prosedurlarını dəyişdirəcəyi barədə söz verdi. Dirçəliş partiyası sərbəst müzakirələri və konstruktiv tənqidləri xoş qarşıladığını elan etdi. Şah bu islahatlara dair fərman verərkən, xüsusi olaraq, Beynəlxalq Hüquqşünaslar Komissiyasına gələcəkdə məhkəmə proseslərinin hərbi deyil, mülki məhkəmələrdə keçiriləcəyini vəd etdi (8, s.501). Sonrakı proseslər Şahın bu addımları atmaqla öz hakimiyyətinin qorunub saxlanması baxımından nə qədər böyük səhvə yol verdiyini göstərdi.

**Mübarizənin yeni mərhələsi**

Aparılan islahatlar rejimdən narazılığı azaltmadı. Əksinə, idarəetmənin bu qədər zəifləməsi müxalifətə səsini qaldırmağa imkan verdi. 1977-ci ilin ortalarından bütün ölkədə hərbi-polis rejimdən narazılığın artması və idarəçiliyin zəifləməsi fonunda siyasi müxaliflərin və narazı kütlələrin fəallaşması müşahidə edildi. Buna misal olaraq tətillərin çoxalması, ziyalıların və müxalif düşüncəli xırda burjua təbəqələrinin çıxışları, tələbə etirazları və s. göstərə bilərik ki, 1949-1953-cü illərdə antiimperialist və demokratik hərəkatın yatırılmasından sonrakı 25 ildə belə hadisələr baş verməmişdi. Rejimin siyasətindən artan narazılıq xüsusən, ziyalıların, siyasətçilərin və məhkəmə məmurlarının açıq müraciətlərində və İran Yazıçılar Birliyi, İran Hüquqşünasları Dərnəyi, İran İnsan Hüquqları və Azadlıqlarını Müdafiə Komitəsi kimi bəzi müxalif təşkilatların minimum azadlıqların təmin edilməsi ilə bağlı tələblərində öz ifadəsini tapdı.

İlk etapda mübarizənin əsas forması Şaha, habelə ölkənin qabaqcıl şəxslərinə göndərilən açıq məktublar idi. Bu dövrü "Petisiyalar mərhələsi" də adlandırmaq olar. 1977-ci ilin may ayında 53 vəkilin, iyunda Milli Cəbhənin üç aparıcı təmsilçisi - Səncabi, Foruhar və Bəxtiyarinin, 40-a yaxın tanınmış ziyalının şah sarayına açıq məktubu, iyulun sonlarında 64 tanınmış hüquqşünasın Tehran otelində açıq şəkildə bir araya gələrək hökumətə qarşı imzaladıqları manifest sözügedən müraciət-

lərdən idi (8, s.501). Həmin müraciətlərdə monarxiyanın yaratdığı dözülməz sosial mühit təsvir olunurdu - rejimi həm iqtisadiyyatı məhv etməkdə, həm də inflyasiya və kənd təsərrüfatına laqeyd yanaşmaqda və beynəlxalq hüququ, insan haqlarını və 1905-1909 konstitusiyasını pozmaqda günahlandırırdılar.

Payızda etirazlar daha da artdı. 98 tanınmış ziyalının imzası ilə hökumətə ünvanlanmış açıq məktubda rejim riyakarlıqda günahlandırılır, Şahın dünyaya liberallaşma mesajı verməsinə baxmayaraq, SAVAK-ın hələ də media senzurasını davam etdirdiyi iddia olunurdu (8, s.503). Müştərək etiraz sənədlərinin hazırlanması, müzakirələr ziyalıların və siyasi aktiv şəxslərin təşkilatlanmasına gətirib çıxardı. Bazargan, Səncabi, Bəxtiyar, Mətin-Daftari, Lahiji, Ayətullah Zəncani, Nazeh və Hacı Seyid Cavadi də daxil olmaqla, 29 müxalif lider İran Azadlıq və İnsan Hüquqlarını Müdafiə Komitəsini, bir qrup ziyalı Universitet Müəllimləri Milli Təşkilatını, tacirlər Tacirlər və Sənətkarlar Cəmiyyətini qurdular. Bundan əlavə, Qumdakı ilahiyyatçı tələbələr Təhsil Cəmiyyəti qurdular və Xomeyninin qaytarılmasını, senzuranın sona çatmasını, Feyziyyə seminariyasının və Tehran Universitetinin yenidən açılmasını tələb etdilər. Hər iki təhsil müəssisəsi tələbələrin mətbuat və sərbəst toplaşmaq azadlığı, Dirçəliş partiyasının ləğvi, məhkəmələrin müstəqilliyi, kənd təsərrüfatına kömək, İran üçün həqiqi suverenlik və imperialist güclərlə əlaqələrə son qoyulması tələbləri ilə müşayiət olunan etiraz aksiyalarına görə bağlanmışdı. İranlı publisist Əli Əsgər Hacı Seyid Cavadinin 28 noyabr 1977-ci il tarixli məktubu tələbələrin başına gətirilən vəhşi şiddətin təsiri altında yazılmışdı (7, s.30). Məktub müəllifi cəza orqanlarının hərəkətlərinin qanunsuzluğu barədə tezis irəli sürür və həmin tezisi rejimin pozduğu konstitusiyanın xüsusi maddələrinə istinadla əsaslandırırdı (7, s.28). Şah rejimini devirən inqilabi hərəkatın başlanması üçün qığılcım hesab edilən bu mərhələ araşdırmaçılar tərəfindən müxtəlif cür dəyərləndirilir. Abbas Milani bu mərhələyə “heç bir məqalə və ya hadisə belə bir ictimai hərəkatın səbəblərini izah edə bilməz” kimi yanaşır (9, s.493). Başqa qrup araşdırmaçı isə Seyid Cavadinin 124 səhifəlik açıq məktubunu, digər qrup Göte İnstitutunda təhsil alan iranlı tələbələrin təşkil etdiyi şeir gecəsini, üçüncü qrup isə ölkənin 53 hüquqşünasının açıq məktubunu inqilab üçün qığılcım kimi görürlər (9, s.493). Zənnimcə, sadalanan və qeyd olunan dövrdə monarxiya əleyhinə yönəlmiş digər etirazlar da daxil olmaqla, baş vermiş bütün hadisələr kompleks şəkildə inqilabi qığılcım rolunu oynayırdı. Məhz bu proseslər bütövlükdə inqilabi proseslərin alovlanması üçün qığılcımverici effekti yaratdı.

Bu peşəkar və insan haqları qruplarının fəaliyyət göstərə bildiyini görən köhnə təşkilatlar öz fəaliyyətini bərpa etməyə başladılar, eyni zamanda yeni siyasi qurumlar da yaradıldı. Sancabi, Foruhar, Bəxtiyar, bir qrup tacir və Sosialistlər Cəmiyyətinin nümayəndələri Milli Cəbhənin Qüvvələr Birliyi (İttehad-i Niruha-yi Cebhe-i Melli) adlı təşkilat yaradaraq Milli Cəbhəni canlandırdılar. Bazargan da Azadlıq Hərəkatını canlandırdı, Milli Cəbhə və bazar icması ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdi və 1905-1909 konstitusiyasının müddəalarının reallaşdırılmasını tələb etdi. Bu vaxt Ayətullah Şəriətmədari ilə sıx əlaqələri olan tanınmış bir Azərbaycan ailəsindən çıxmış, fransızca təhsil alan liberal bir ziyalı kimi tanınan Rəhmətullah Moqadam Marağai Radikal Hərəkat (Nəhzət-i Radikal) adlı yeni bir partiya yaratmaq üçün dünyəvi dəyərlərin daşıyıcısı olan həmfikirlərini bir araya gətirdi. Nəhayət, Tudə partiyası qeyri-leqal fəaliyyətdən çıxaraq, xüsusən Tehran, Abadan və Rəştdəki bəzi şöbələrini canlandırdı. İnqilabın bu erkən mərhələsində böyük müxalifət partiyalarından heç biri açıq şəkildə respublika, o cümlədən bir islam respublikası qurmağı tələb etməmişdi. Əksinə, qeyd olunan şəxslərin və təşkilatların əksəriyyətinin ilkin məqsədi konstitusiyalı monarxiyaya söykənən 1906-1909-cu illərdə qəbul olunmuş Əsas Qanununun bərpası idi.

Monarxiyaya açıq şəkildə qarşı çıxan solçu təşkilatlar (İran Xalqının Fədai Partizanları Təşkilatı (OPFIN) və İran Xalqının Mücahidləri Təşkilatı (OMIN)) 1970-ci illərin ikinci yarısında yalnız silahlı mübarizə aparmanın təsirsiz olduğu qənaətinə gəldilər. 1970-ci illərin ikinci yarısından başlayaraq, bu təşkilatların əsas fəaliyyətlərinin kütlələr arasında təbliğat işinin gücləndirilməsinə yönəlməsi onların silahlı mübarizə taktikasını arxa plana keçirirdi. İdeoloji planda da həmin təşkilatlar ifrat solçuluq meyillərindən tədricən uzaqlaşaraq, milli məsələlərə daha çox diqqət ayırmağa başladılar.

1970-ci illərin sonuna doğru İran çərçivəsində Azərbaycan məsələsinin həllini tələb edən qüvvələr əsasən, zəhmətkeş kütlələrin marağını təmsil edən sol və xırda burjuaziyaya mənsub solçu demokrat təşkilatlar idi. Təəssüflər olsun ki, öz sosial mənşələrinə görə solçu və xırda burjuaziyaya mənsub olan, yuxarıda qeyd edilən Fədai və Mücahid təşkilatları milli və etnik məsələlərin həlli ilə bağlı İrandakı mövcud şəraitə uyğun konkret platforma işləyib hazırlaya bilmədilər. Onlar milli məsələnin demokratik mübarizə nəticəsində bu ölkədə şahlıq rejiminin devrilməsindən və ABŞ təsirinin ləğvindən sonra həll ediləcəyinə inanırdılar (4, s.295).

1977-ci ilin ortalarından etibarən burjua ziyalıları Şahın təkhakimiyyətliliyinin məhdudlaşdırılmasını tələb edərək, konstitusiya hüquq və azadlıqlarına ciddi şəkildə əməl olunması tələbləri ilə kampaniyaya başladılar. Əslində bu kampaniya dövlət idarəçiliyində daha çox iştirakda və xüsusi kapital üzərində monarxiyanın ciddi nəzarətinin zəifləməsində maraqlı olan burjuaziyanın əlinə keçdi.

Beləliklə, II Dünya müharibəsindən sonrakı bütün dövrlərdə konstitusiyada nəzərdə tutulan vətəndaş azadlıqlarına riayət edilməsi tələbi müxtəlif sosial təbəqələri əhatə edən, siyasi mövqeyinə görə müxtəlif dairələri təmsil edən müxalifnümayəndələrin əsas şüarı olaraq qaldı və İran cəmiyyətinin siyasi həyatının gündəmindən çıxmadı. Monarxiyanın sözügedən şüara məhəl qoymaması hansı sosial təbəqəyə mənsub olduqlarından asılı olmayaraq, müxaliflərə qarşı kütləvi repressiyalarda özünü göstərirdi və bu, inqilabın ilkin şərtlərini formalaşdıran amillərdən biri oldu.

**Mübarizənin açıq nümayiş formasına keçməsi**

Ölkə demokratiya aclığı çəkirdi və konstitusiyada nəzərdə tutulmuş azadlıqlara riayət olunması tələbi altında ən müxtəlif sosial təbəqələri birləşdirə bilən bu vəziyyət gələcək inqilabın, xüsusən burjua-demokrat inqilabının vəzifələrini həll etməli olacağını açıq şəkildə göstərdi.

1977-ci il noyabr ayının ortalarına qədər müxalifət enerjisini yazılı müraciətlərə və təşkilatlanmaya yönəltmişdi. Noyabr ayının ortalarından sonra müxalifətin küçə və meydanlara axını başladı. Bu, inqilabi prosesdə yeni bir mərhələnin başlanğıcı idi.

İranda inqilabi prosesin ilk elçiləri olan tələbə etirazları 1977-ci ilin oktyabrında Tehran Universitetində başladı, daha sonra noyabr ayında davam etdi və Aryamehr İsfahan Universitetinə də keçdi. 19 noyabrda Aryamehr Universitetində fəaliyyət göstərən İran-Alman Mədəniyyət Cəmiyyətində Ədəbiyyat Birliyi tərəfindən təşkil edilmiş doqquzuncu şeir gecəsindən sonra təqribən 10000 tələbənin iştirak etdiyi onuncu sessiyanın polis tərəfindən dağıdılma cəhdi dönüş nöqtəsi oldu. Dinc tədbirin dağıdılması cəhdi qəzəbli bir kütləni tələbə şəhərciyindən çıxaraq, rejim əleyhinə şüarlar səsləndirərək küçələrə axmasına səbəb oldu. Polislə toqquşmada bir tələbə öldürüldü, 70-dən çoxu yaralandı və yüzə yaxını həbs olundu. Növbəti 10 gündə daha çox tələbə nümayişi baş verdi və 19 noyabr basqınına etiraz olaraq, əsas Tehran universitetləri bağlandı.

Qeyd edilən dvrdə İranda hər il dekabrın 7-si Tələbələr günü kimi qeyd edilirdi. 1977-ci ildə etirazçı tələbələr həmin günü etiraz günü elan etdilər. 3-10 dekabr aralığındakı həftə ərzində demək olar ki, bütün universitetlərin tələbələri və bəzi orta məktəblərin şagirdləri dərslərə gəlməyərək hakimiyyətin repressiyalarına, “ölkənin boğucu atmosferində” demokratiyanın olmamasına etiraz bildirdilər. “Tələbə həftəsi” deyilən həmin tarixdə baş verən hadisələr nəinki bütün İranda, hətta xaricdə belə, geniş əks-səda doğurdu. Xaricdə təhsil alan iranlı tələbələrin nümayişləri xüsusilə geniş yayılmışdı. Nümayişlər Vaşinqton, Los-Anceles, London, Kopenhagen, Roma və Parisdə keçirilmişdi.

Etirazlar nəticəsində rejim geri çəkilməli oldu. Əvvəlki iğtişaşlarda tutulan nümayişçilərə mülki məhkəmələrdə bəraət verildi. Bu məhkəmələr SAVAK-ın müxalifləri qorxutmaq üçün artıq hərbi məhkəmələrdən istifadə edə bilməyəcəyinə dair açıq bir işarə idi. Siyasi gərginliyi azaltmaq üçün tətbiq olunan liberallaşma güclü bir stimul olaraq özünü göstərdi.

Tələbə nümayişlərinin ardınca Kərəc və Şirazda hökumət əleyhinə nümayişlər baş verdi. Ölkənin ən böyük özəl kommersiya banklarından biri olan Bank-e Tehranın işçiləri tətil etdilər. “Ettelaat” qəzetinin yazdığına görə, “son nümayişlər zamanı 60 nəfər öldürüldü, yüzlərlə insan yaralandı və minlərlə adam həbs olundu” (5, s.101).

O dövrdə dini matəmdən istifadə edərək açıq şəkildə ön plana çıxan Milli Cəbhənin liderləri (1977-ci ilin dekabrında) Tehran yaxınlığındakı yaşayış məntəqələrindən birində toplantı keçirdi.

Qeyd edilən dövrdə Azərbaycanda da etiraz nümayişləri keçirildi. Məsələn, 28 noyabrda bir qrup insan Təbriz bazarında rejimin anti-milli siyasətini ifşa edən və öz ana dilində şüarlar səsləndirən plakatlar daşıyan nümayiş keçirdi. Bazarda işləyən xeyli adam - bazar tacirləri, dükançılar və bazar sənətkarları da onlara dəstək verdi.

3 dekabr 1977-ci il tarixində Təbrizdən bir qrup müəllim və pedaqoq əsas təhsil şöbəsinin binasının qarşısına toplanaraq tələblərini cavabdeh şəxslərə təqdim etdilər (5, s.101). Onlar hər şeydən əvvəl İranın müxalif düşüncəli yazıçılarının həbsdən azad olunmasını tələb etdilər. Eyni zamanda, maaşların artırılmasını, habelə maraqlarını və hüquqlarını qorumaq üçün həmkarlar ittifaqlarının yaradılmasını tələb etdilər. Nümayiş 1960-cı illərin əvvəllərində rejim tərəfindən öldürülmüş şəxsin (müəllim Mobarez Hanalinin ) xatirəsinin ehtiramla yad edilməsi ilə sona çatdı və etirazlarını davam etdirmək üçün 31 dekabrda yenidən nümayiş keçirilməsi barədə qərar verildi. Şah hökumətinin rəhbərliyi altında Təbrizin müəllim və pedaqoqlarının toplantısını ləkələmək və nüfuzdan salmaq üçün təşkil olunmuş monarxist tərəfdarların bu nümayişlərə qarşı çıxmaq cəhdləri isə nəticə vermədi.

1977-ci il dekabr ayının əvvəlində Cənubi Azərbaycandakı tələbələr də Pəhləvi rejiminə qarşı etiraz aksiyaları təşkil etdilər. Dekabrın 5-də Təbriz universitetinin girişinin qarşısına toplaşan tələbələr Azərbaycan türkcəsində “Biz demokratiya istəyirik, azadlıq istəyirik”, deyə şüarlar səsləndirdilər. Təbriz Dövlət Universiteti tələbələrinin hökumət əleyhinə keçirdikləri nümayiş İran ictimaiyyətinin ən parlaq etiraz aksiyalarından biri idi. Mübarizədə fəal şəkildə iştirak edən bu universitetin tələbələri 19 iclas keçirmiş və iclaslarda irəli sürdükləri tələblərin həyata keçirilməsinin məqbul prinsip və metodlarını müzakirə etmişdilər. 1977-ci ilin dekabrında universiteti bir-birinin ardınca etiraz dalğaları bürüdü. 5 dekabrda universitetin həyətinə toplaşan “Azərbadegan” Universitetinin tələbələri “Demokratiya tələb edirik!”, “Biz azadlıq istəyirik!” şüarlarını səsləndirdilər (5, s.102). İran Demokratik Partiyası Mərkəzi Komitəsinin Azərbaycandakı regional təşkilatının orqanı olan “Azərbaycan” qəzeti bu hərəkat haqqında yazırdı: “Güc və qüdrəti... xalqdan aldılar”. Nümayişin başlamasından bir müddət sonra bir qrup hərbiçi tələbələrə hücum etdi. Silahlı SAVAK-çıların və onları dəstəkləyən qüvvələrin hücumuna tələbələr daş-kəsəklə cavab verməli oldular. Tələbələrin ədalətli tələbləri yerli hakimiyyət nümayəndələri tərəfindən kobudluq və qəddarlıqla qarşılansa da, etiraz aksiyaları həm universitetin bütün rəhbərliyinin, həm də onları qoruyan silahlı qüvvələrin sıralarında qarışıqlıq yaratdı. Dekabrın 12-də, “Azərabadeqan” Təbriz Universitetinin tələbələri özünəməxsus bir mübarizə və etiraz formasına müraciət edərək universitetin ərazisində bəstə oturdular (oturaraq keçirilən etiraz aksiyası) və aksiyanın 24 saat davam edəcəyini elan etdilər (5, s.103). Demokratik azadlıqların təmin olunmasını tələb edən tələbələr Cənubi Azərbaycanda əhalinin həyatının bütün sahələrində geniş mütərəqqi və demokratik dəyişikliklər həyata keçirən Milli Hökumətin qurulduğu tarixi - 12 dekabr 1945-ci ili xatırlayaraq, tam bir gün universitet ərazisində oturaq aksiya keçirmək niyyətində idilər. Ancaq iki saat keçməmiş hərbi dəstə birbaşa universitet rektorundan çox sayda tələbənin oturaq aksiya keçirdiyi binaya hücum əmri aldı və günortadan sonra saat 5-də tətilçilərə hücum olundu. Hərbi dəstə 100-dən çox adamdan ibarət idi. Binaya daxil olan hərbçilər müdafiəsiz tələbələri vəhşicəsinə döydülər. Universitetə yaxınlaşan və orada gözləyən avtobusdan aydın oldu ki, cəza dəstəsinin komandanlığı bütün tələbələri tutub aparmaq niyyətindədirlər. Qarşıdurma zamanı ölən və yaralananlar oldu. Binanın xaricində qalan tələbələr, oradakı yoldaşlarının fəryadlarını eşidərək köməyinə qaçdılar. Onlar “Birlik, savaş, zəfər!”, “Muzdlu, rədd ol!” şüarları səsləndirərək, daş və kərpiclə “silahlanaraq” hərbi dəstənin girdiyi binaya hücum etdilər (5, s.103). Hadisələrin bu cür yön aldığını görən hərbçilər tələbələri həbs etmək fikrindən vaz keçərək, tələbə vəsiqələrini tələbələrdən alaraq binanı tərk etmək məcburiyyətində qaldılar. Növbəti günlərdə hərbçilər tələbə biletləri götürülmüş 150 tələbənin universitetlərdə dərslərə girməsinin qarşısını aldılar. Qəzəblənmiş tələbələr əvvəlcə “Azərabadegan” Universitetinin yanında yerləşən hərbi dəstənin mühafizə postunu yandırdılar və iki maşını zədələdilər. Onlar hərbçiləri daşa basaraq və hökumət əley-

hinə şüarlar səsləndirərək Təbriz şəhərinin mərkəzi küçələrindən biri - "Pəhləvi" küçəsinə tərəf hərəkət etdilər. Tələbələr onların aksiyasını dağıtmaq üçün göndərilən iki yanğınsöndürən maşınının şüşələrini də sındırdılar.

Etiraz aksiyaları zamanı diqqəti çəkən vacib bir fakt yuxarıdakı hadisələrdən də göründüyü kimi, 1977-ci ilin sonlarında ümumən İran mübarizəsinə qoşulan və sonradan 1978-1979 İran inqilabında əhəmiyyətli bir rol oynayan Təbriz Universitetinin tələbələrinin şəhər əhalisi tərəfindən dəstəklənməsi idi. Bu da öz növbəsində tələbələrin narahatlığının kütlənin, daha doğrusu, orta ənənəvi şəhər təbəqələrinin narazılığı ilə uzlaşdığını göstərirdi.

Polisin müdaxiləsindən sonra tələbələrin evlərinə getmək məcburiyyətində qalmasına baxmayaraq, bu çıxışlar bir daha göstərdi ki, "21-ci Azəri hərəkatı" unudulmur və insanların qəlbində yaşayır və onlar sələflərinin mübarizəsini davam etdirməkdə tam qərarlıdırlar. Xüsusilə oturaq aksiya - "bəst" üçün 21 azər (12 dekabr) tarixinin seçilməsi azərbaycanlıların milli şüur səviyyəsinin göstəricisi idi - onlar hələ də milli hədəflərə sadiq qalmış və milli mübarizə tarixlərini unutmamışdılar.

17 dekabr, şənbə günü, Təbriz "Azərabadegan" Universitetinin 25 tələbəsi həbs olundu. Hərbçilər onları universitetdən bir qədər uzaqdakı polis bölməsinə apardılar. Həbs olunan tələbələr orada vəhşicəsinə döyüldü və işgəncə altına alındı. Onların qollarını daşların iti küncləri və qəlpələri ilə doğrayaraq sürüyürdülər. Artıq bundan sonra onların sərbəst hərəkət etməyə belə, halları qalmırdı. Guya universitetdə toqquşma baş verərkən tələbələr hərbi qruplaşmanın əlindən qaçdığı üçün komandanlıq həmin SAVAK-çıların yemək pulunu kəsmişdi və SAVAK-çılar da bunun qisasını alırdı.

Davam edən mübarizə və tələbələrin etirazları səbəbilə Təbrizin "Azərabadegan" Universitetinin rəsmiləri həbs olunanları sərbəst buraxmaq və tələbə vəsiqələri alınan tələbələrin dərslərinə başlamalarına icazə vermək məcburiyyətində qaldılar. Hökumətin rəsmi mətbu orqanları Təbriz Universiteti tələbələrinin öldürüldüyünü və yaralandığını, həbs olunduğunu, ümumiyyətlə, yuxarıda göstərilən çıxışları İran ictimaiyyətindən gizlətməyə çalışdı. Yalnız hökumət dairələrinə yaxın yarırəsmi qəzet olan "Ettelaat"da təsadüfən bu mövzuda yalnız bir cümlə dərc olundu: "Azerbadegan" Universitetində, 28 azərdə (19.12.1977) naməlum bir qrup tələbə maskasına büründü və universitetdə dərslərin gedişinə mane ola bilmədikləri üçün binanın şüşələrini sındırıb qaçdılar" (5, s.104). Hakimiyyət mətbuatı "iğtişaşlar" barədə bir neçə gün sonra xəbər verdi və hadisələrin 19 dekabrda baş verdiyini qeyd etdi.

Göründüyü kimi, hakimiyyətə yaxın mətbuat tələbələrin çıxışlarının məhz 21 Azərdə baş verdiyini gizlətmək üçün hadisələrin başvermə tarixini bilərəkdən, düşünülmüş şəkildə təhrif etmişdi. Səbəb rejimin hər hansı bir milli, yaxud etnik siyasi fəaliyyətə həssaslığından irəli gəlirdi.

Üstəlik, həmin vaxt hakimiyyət nəşrlərində 1946-cı ilin sonunda Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkatını süquta uğradan "şücaətli Şahənşah qoşunlarına" həsr olunmuş və onları reklam edən yazılar və fotoşəkillər dərc edilirdi. Məsələn, 13 dekabr 1977-ci il tarixində "Ettelaat"da qeyd edilirdi: "İran torpağının böyük şahının rəhbərliyi altında İran ordusu bu gün o qədər güclüdür ki, hər bir iranlı əmin olmalıdır ki, bu cür hadisənin daha uğursuz hadisəsi - Azərbaycanın (İrandan) ayrılması təkrarlanmayacaq" (5, s.105). Qəzetin iddia etdiyi "Azərbaycanın ayrılması" və "İranın parçalanması" ilə bağlı iddialarını bir kənara qoyaq, yalnız qeyd edəcəyik ki, bu cür təşviqat və təminatlardan sonra silahlı qüvvələrin gücünün əyani nümayişi, hədə dolu xəbərdarlıq mesajları və Cənubi Azərbaycanda baş verən kütləvi tələbə etirazları və narazılıqlar barədə kiçik bir qeyd belə, 1940-cı illərin ortalarında milli-azadlıq hərəkatı ilə əlaqədar olan rəsmi təbliğatı kökündən təkzib edirdi. Göründüyü kimi, ölkədəki geniş əks-səda doğuran bu çıxışlar haqqında ən azı bir məlumat vermək məcburiyyətində qalan rəsmi mətbuat bir tərəfdən hər şeyi təhsil prosesini pozmaq səviyyəsinə endirərək, Təbriz Universiteti tələbələrinin əsl səbəbləri və hədəfləri barədə susaraq aksiyaların əhəmiyyətini azaltmağa çalışır və bu səbəbdən də onları tələbə maskasına bürünmüş "naməlum qrup"un yaratdığı kiçik bir "hücum" kimi təqdim etməyə tələsirdi. Başqa bir tərəfdən isə 40-cı illərin ortasındakı milli-azadlıq hərəkatını xatırladaraq özünü ifşa edirdi (5, s.105).

Qeyd edək ki, rəsmi dövri nəşrlərin bu mövqeyi ölkədə və xüsusən də Güney Azərbaycanda baş verən qarışıqlıqlar barədə məlumatların təqdimatında, əlbəttə ki, hakim rejim tərəfindən verilən göstəriş və tövsiyələrə əsaslanaraq, sonrakı dövrlərdə daha aydın şəkildə göründü. Qeyd olunanlar 1978-79-cu illərdə İrandakı inqilabi hadisələrdə, xüsusən də 18-19 fevral 1978-ci il Təbriz üsyanında özünü bariz göstərdi.

Bununla belə, Şah rejiminin ölkədə yerli idarəçilik qurumlarının və universitet rəhbərlərini yeni aksiyaların qarşısını almaq üçün dəyişdirməsi və vəzifəli şəxslərin vəzifələrindən kənarlaşdırılmasına diqqət etsək (bu barədə xəbərlərə o dövrün rəsmi mətbuatında geniş yer verilmişdi (5, s.106), hərbi-diktator rejiminin baş verənlərdən ciddi narahat olduğu və qeyd olunan iğtişaşların təsir dairəsi barədə mühakimə yürüdə bilərik. Bu baxımdan mətbuatda Təbriz bələdiyyə başçısının vəzifəsindən uzaqlaşdırıldığı və 28 dekabr tarixində Şərqi Azərbaycan vilayətinin ticarət şöbəsinin müdiri dr. Məhəmməd Bağer Sədrinin bu vəzifəyə gətirildiyi barədə məlumatın yayılması diqqəti çəkir. Göründüyü kimi, bu yerdəyişmə birbaşa Təbriz Universitetindəki hadisələrlə əlaqəli idi.

Azərbaycan bölgəsində rejim əleyhinə nümayişlər yalnız Təbrizlə məhdudlaşmırdı. 1978-ci ilin fevralında Urmiya Universitetinin tələbələri rejimə qarşı bir neçə nümayiş təşkil etdilər. Azərbaycanlılar ictimai nəqliyyatda avtobuslarda inqilabı təbliğ edən şeirlər oxuyurdular. Azərbaycandakı Təbriz “Azərabadegan” Universiteti tələbələrinin çıxışlarından və qəbul edilmiş tədbirlərdən sonra “Ettelaat” qəzetində çıxan iki xəbərə görə, heç bir əsas olmadan və səbəb göstərilmədən “Rezaye (Urmiya) Universitetinin bütün qrupları fasiləsiz dərslərə başladılar” və universitetin rektoru dr. Cəfər Rasi Urmiya Kənd Təsərrüfatı Universitetinə yeni rektor təyin edildi (5, s.106). Qeyd edilən universitetdəki aksiyalar rəsmi mətbuat tərəfindən nə qədər gizlədilsə də bu xəbərdən də Qərbi Azərbaycan vilayətinin sənaye, iqtisadi və mədəni mərkəzi olan Urmiya şəhərində də tələbələr arasında iğtişaşların olduğu barədə informasiya almaq olur.

Hökumət mətbuatı tərəfindən müxalifət nümayişlərinin gedişi və xüsusilə 1977-ci ilin sonundakı Azərbaycandakı tələbə iğtişaşları barədə verilən məlumatların azlığı, həmin hadisələrin xarakterini və miqyasını tam şəkildə ortaya qoymağa imkan vermir. Eyni zamanda, hakimiyyətin yarırəsmi çıxan bəzi dövri nəşrlərində işıq üzü görən məlumatları analiz etdikdə, görmək olur ki, Azərabadəgan Universiteti tələbələrinin əhəmiyyətli bir hissəsi etiraz aksiyalarında iştirak edib. Buna misal olaraq 7 dekabr 1977-ci il tarixində “Ettelaat”da çıxan qısa bir məlumata diqqət yetirək: “Dünən “Azərabadegan” universitetində gündüz şöbəsinin qruplarının 60 faizi təhsil almağa başladı” (5, s.106).

Yuxarıda qeyd edilən tələbə çıxışlarını ölkədə başlamış inqilabi prosesin ilk əlamətləri kimi qiymətləndirmək olar. Tələbə etirazları və hakimiyyət güclərinin onlara qarşı tədbirləri tələbələrin mübarizə əzmini nəinki sarsıtdı, əksinə onların arasındakı həmrəyliyi daha da möhkəmləndirdi. Eyni zamanda aksiyalar zamanı şəhər əhalisinin tələbələrə açıq dəstək verməsindən də görmək olur ki, bu hadisələr tələbələrlə orta və aşağı şəhər təbəqələri arasında da həmrəyliyin güclənməsində əhəmiyyətli rol oynadı.

Bütün İran demokratik hərəkatının bir hissəsi olan tələbə iğtişaşları müxtəlif formalarda davam etdirildi və antimonarxist və anti-imperialist inqilabın sonrakı gedişinə əhəmiyyətli təsir edərək monarxiya rejiminin çökməsi ilə nəticələndi.

Sol radikal təşkilat olan Fedayan-e Xəlq-e İranın Mərkəzi Komitəsinin orqanı kimi dərc olunan “Kar” qəzeti yazırdı: “İnqilabçı tələbələr inqilabı gücləndirmək, əksinqilabi sui-qəsdləri ifşa etmək və insanları inqilabı təhdid edən dəyişikliklər və təhlükələrdən xəbərdar etmək üçün apardıqları mübarizə ilə layiqli bir iz buraxdılar”. 31 may 1982-ci il tarixli “Azərbaycan” qəzeti Təbriz Universiteti tələbələrinin yüksək inqilabi ruhunun, düşmən qüvvələr qarşısında göstərdikləri cəsarət və müqavimətin inqilabi hərəkatda xüsusilə dərin izlər buraxdığını vurğulayırdı (5, s.107). Təsadüfi deyil ki, iki aydan sonra Təbriz tələbələri də daxil olmaqla şəhər təbəqələrinin ilk böyük, güclü açıq nümayişi baş verdi ki, bu, ölkənin inqilabi prosesində yeni bir fazanı – inqilabın 1977-ci ilin sonundan 1978-ci ilin sentyabrına qədər davam edən ilk böyük dövrünü, ikinci mərhələsini açdı.

**Nəticə**

*İran islam inqilabı ərəfəsində şah hökuməti iqtisadi sahədə sənayeləşdirməyə və aqrar islahatların aparılmasına, həmçinin mədəniyyət sahəsində modernləşdirməyə cəhdlər etsə də, siyasi-hüquqi sahədə qatı mühafizəkar, mürtəce siyasət yürütməsi ölkədə mövcud olan iqtisadi, sosial və siyasi xarakterli ziddiyyətləri daha da dərinləşdirdi. Hökumətin Qərb müttəfiqlərinin israrı ilə ölkədə liberal mühit yaradılması istiqamətində atdığı addımlar rejimə müxalif olan qüvvələrə mübarizəni genişləndirmək üçün əlverişli şərait yaratdı.*

## ƏDƏBİYYAT

1. Bayramzadə S.Z. (*1989*). İran hakim dairələrinin Cənubi Azərbaycan maarif və mədəniyyəti sahəsindəki siyasəti (1944-1978-ci illər) *// Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu). − Bakı: Elm, – s.* 46-67

*2.* Dostəliyev S. (2010). İran İslam Respublikası. Məlumat kitabı. *– Bakı: "Bakı çap evi",– 202 s.*

3. Nəsibzadə N.L. (*1989*). 1960-70-ci illərdə Cənubi Azərbaycanın sosial-iqtisadi inkişafının bəzi məsələləri haqqında *// Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu). − Bakı: Elm, – s.* 68-97

*4.* Tağıyeva Ş., Rəhimli Ə. (Bije), Bayramzadə S. (2000) *Güney Azərbaycan (məlumat kitabı). − Bakı: Orxan, − 514 s.*

5. Бабаев Э.Ч. (*1989*). Южный Азербайджан в Иранской революции 1978-1979 гг. *// Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu). − Bakı: Elm – s. 98-142*

*6.* Дорошенко *Е.* А. (1975). Шиитское духовенство в современном Иране. М.

7. Иранскаяреволюция 1978-1979. (1989). «Наука» Москва, 559 ст.

8. Abrahamian E. (1982). Iran between two revolutions, Princeton University Press, New Jersey, 576 p.

۹. عباس میلانی. نگاهی به شاه , نشر پرشین سیرکل تورنتو-کانادا, ۱۳۹۲ ۶۰۳ ص

*۱۰ . شافر برندا. مرزها و برادری ایران و چالش هویت آذربایجانی. نشر الوس.۱۳۸۵ . ۲۵۵ ص.*

## *XÜLASƏ*

***Yeganə HACİYEVA***

### *İran İslam İnqilabı ərəfəsində İranda, o cümlədən Cənubi Azərbaycanda inqilabi şəraitin yetişməsi*

***Açar sözlər:*** *İnqilab, İran, cənubi azərbaycanlılar, milli məsələ, mübarizə*

Şah hökuməti İslam İnqilabı ərəfəsində iqtisadiyyatı sənayeləşdirməyə və aqrar islahatlara, habelə mədəni modernləşməyə can atsa da, onun siyasi-hüquqi sahədə sərt mühafizəkar siyasəti ölkədə iqtisadi, sosial və siyasi ziddiyyətləri daha da gücləndirdi. Qərb müttəfiqlərinin təkidi ilə hökumətin ölkədə liberal mühitin yaradılması istiqamətində atdığı addımlar rejimə qarşı çıxan qüvvələrə qarşı mübarizənin genişləndirilməsi üçün əlverişli şərait yaratdı.

## *РЕЗЮМЕ*

***Егана ГАДЖИЕВА***

### *Развитие революционных условий в Иране, в том числе в Южном Азербайджане, накануне иранской исламской революции*

***Ключевые слова:*** *Революция, Иран, южные азербайджанцы, национальный вопрос, борьба*

Хотя накануне Исламской революции правительство шаха стремилось к индустриализации экономики и проведению аграрных реформ, а также культурной модернизации, его строгая консервативная политика в политической и правовой сферах усугубила экономические, социальные и политические противоречия в стране. По настоянию западных союзников шаги правительства по созданию либеральной обстановки в стране создали благоприятные условия для расширения борьбы против сил, противостоящих режиму.



## *SUMMARY*

***Yegana HAJIEVA***

### *The Development of Revolutionary Conditions in Iran, Including South Azerbaijan, on the Eve of the Iranian Islamic Revolution*

***Keywords:*** *revolution, Iran, southern Azerbaijanis, national issue, struggle*

Although on the eve of the Islamic Revolution, the Shah's government sought to industrialize the economy and carry out agrarian reforms, as well as cultural modernization, its strict conservative policies in the political and legal spheres deepened the country's economic, social and political contradictions. With the insistence of Western allies, the government's steps to create a liberal environment in the country have created favorable conditions for the expansion of the struggle against forces opposed to the regime. On the other hand, the efforts of foreign countries to interfere in the internal affairs of the country have created an opportunity for discontented opposition groups to openly express their views and hold protests, taking advantage of the situation.